15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günüdür!

23/24 (1330) 13-25 iyun 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “MİSİRLƏ SİYASİ DİALOQ MÜNTƏZƏM XARAKTER DAŞIYIR”



*“Bu səfər Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük təkan verəcək”.*

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Misir Prezidenti Əbdülfəttah əs-Sisi ilə mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı bildirib: *“Keçən il biz Prezident Sisini Azərbaycanda qəbul etmişdik, bu il mən səfər edirəm. Yəni, bu, onu göstərir ki, siyasi dialoq müntəzəm xarakter daşıyır və biz razılaşdıq ki, bundan sonra da bu siyasi dialoq davam etdirilsin”.*

## “CƏNUBİ QAFQAZDA SÜLHÜN, TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ SƏYLƏRİ DƏSTƏKLƏYİRİK”

**“Cənab Prezidentə (Prezident İlham Əliyevə - red.) Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi istiqamətində səylərin vacibliyini və bu səyləri dəstəklədiyimizi bir daha bildirdim”.**

Bu sözləri Misir Prezidenti Əbdülfəttah əs-Sisi Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında söyləyib.

Bu səylərin region ölkələrinin və xalqlarının inkişafı üçün böyük töhfə olacağını vurğulayan Misir Prezidenti deyib: *“Həmçinin cənab Prezidentə bildirdim ki, növbəti mərhələdə ikitərəfli əlaqələrin bütün sahələrdə inkişafının şahidi olacağıq”.*

## “AZƏRBAYCANIN QAZANDIĞI NAİLİYYƏTLƏRİ YÜKSƏK QİYMƏTLƏNDİRİRİK”



Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko bu ölkədə rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Prezident Aleksandr Lukaşenko bu səfərin parlamentlər arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə qeyd olunub ki, ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan strateji münasibətlər uğurlu inkişaf yolu keçib.

A.Lukaşenko Belarusda xüsusən də ölkəsinin faşist işğalçılarından azad edilməsinin 80 illiyinin qeyd olunduğu bu günlərdə azərbaycanlıların Qələbəyə və Belarus torpaqlarının azad edilməsinə verdikləri töhfəni yüksək qiymətləndirdiklərini, onların şücaətlərini xatırladıqlarını deyib.

Söhbət zamanı A.Lukaşenko Azərbaycana ötənayki səfərini böyük məmnunluqla xatırlayıb, Prezident İlham Əliyevlə görüşlərindən bəhs edib. Belarus Prezidenti dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətləri yüksək qiymətləndirib. O, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çox uzaqgörən, qüdrətli bir şəxsiyyət, Prezident İlham Əliyevin isə Ulu Öndərin layiqli davamçısı olduğunu söyləyərək bildirib: “O, çox işlər görüb və çətin ki, İlham Əliyevdən sonra hansısa prezident bunu təkrar edə bilsin”.

Aleksandr Lukaşenko, həmçinin iki ölkənin parlamentləri arasında əlaqələrin səviyyəsindən razılığını ifadə edib. Deyib ki, parlamentlərarası münasibətlər dövlətlərimiz arasında münasibətlərin mövcud səviyyəsindən geri qalmır. Milli Məclisin sədri Sahibə Qafarova Prezident İlham Əliyevin salamlarını Belarus Prezidentinə çatdırıb.

Prezident Aleksandr Lukaşenko salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

S.Qafarova qeyd edib ki, xalqlarımızı ənənəvi dostluq əlaqələri, ümumi dəyərlər birləşdirir və ölkələrimiz arasında münasibətlər dövlət müstəqilliyinin bərpasından sonra bütün sahələrdə uğurla inkişaf edir. Bu əlaqələrin inkişafında iki ölkənin dövlət başçıları arasındakı yüksək səviyyəli əlaqələr böyük rol oynayır. Milli Məclisin sədri yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı imzalanmış sənədlərin münasibətlərimizə xüsusi təkan verdiyini bildirib.

O, bu münasibətlərin parlamentlər çərçivəsində də uğurla davam etdirilməsinin vacibliyini vurğulayıb, iki ölkənin qanunverici orqanlarının həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq etdiklərini diqqətə çatdırıb.

Görüşdə, həmçinin iki ölkə arasında iqtisadi-ticari əməkdaşlığın inkişafı, bu sahədə mövcud olan potensial barədə fikirlər səsləndirilib. Belarus Prezidentinin Azərbaycana səfəri zamanı əməkdaşlığın daha da genişləndirilməsi imkanları, bir çox sahələr üzrə əlaqələrin dərinləşdirilməsi ilə bağlı müzakirələr aparıldığı bildirilib. Bunun üçün parlamentlərin də müvafiq qanunvericilik bazasının yaradılması istiqamətində fəaliyyət göstərməsinin önəmi vurğulanıb.

## AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA QARDAŞLIQ, DOSTLUQ VƏ MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ BÜTÜN SAHƏLƏRDƏ UĞURLA İNKİŞAF EDİR



İyunun 10-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıblar.

Görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi xüsusilə qeyd edilib, Orta Dəhlizin inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin önəmi vurğulanıb.

Həmçinin Türk Dövlətləri Təşkilatının və qardaş ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyəti bir daha qeyd olunub.

Prezident Rəcəb Tayyib Ərdoğan Şuşadakı qeyri-rəsmi Zirvə görüşündə iştirak edəcəyini bildirdi və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb. Dövlətimizin başçısı Türkiyə Prezidentini COP29-a bir daha dəvət edib.

Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri iyunun 10-da başa çatıb.



# “Parlamentlərarası İttifaqla birgə COP29 çərçivəsində parlament görüşü təşkil etməyi planlaşdırırıq”

Milli Məclisin sədri Sahibə Qafarova Minsk şəhərində Belarus Dövlət Universitetində olub.

Azərbaycan parlamentinin sədrini Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova və universitetin rektoru Andrey Korol qarşılayıblar.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova Belarus Dövlət Universitetinin rektoru Andrey Korol ilə görüşüb. Görüşdə Milli Assambleya Respublika Şurasının sədri Natalya Koçanova da iştirak edib.

Görüşdən sonra Sahibə Qafarova Belarus Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələri qarşısında məruzə ilə çıxış edib.

Milli Məclisin sədri iştirakçılara Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi və ənənələri, xalqımızın tolerantlıq və multikultural dəyərləri, Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi və onun töhfələri barədə danışıb.

O, həmçinin Azərbaycanın 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonrakı ilk illərdə yaşadığı çətinliklər, yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra ölkəmizdə sabitliyin bərqərar olması, hüquqi müstəqil dövlətin qurulması prosesi, müstəqil Azərbaycanın müasir, güclü dövlətə çevrilməsi üçün siyasi-iqtisadi islahatların əsasını təşkil edən neft strategiyasının işlənib hazırlanması, neft gəlirlərinin səmərəli idarə olunması və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyması barədə məlumat verib.

Azərbaycanın bu ilin noyabr ayında Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibi seçilməsi barədə də tədbir iştirakçılarını məlumatlandıran parlamentin sədri qeyd edib ki, bu, Azərbaycanın təkcə milli deyil, həm də regional və qlobal səviyyədə iqlim dəyişikliyi probleminin həllində göstərdiyi səylərin etirafıdır. O məlumat verib ki, Parlamentlərarası İttifaq rəhbərliyinin təşəbbüsü ilə Azərbaycanın Milli Məclisi də bu təşkilatla birgə COP29 çərçivəsində parlament görüşü təşkil etməyi planlaşdırır.

S.Qafarova bildirib ki, Azərbaycan 30 ildən artıqdır ki, Birləşmiş Millətlər Təşkilatının məsul üzvü kimi beynəlxalq hüquq və ədalət prinsiplərinin qorunması üçün əlindən gələni edib. O, ölkəmizin 2012-2013-cü illər ərzində BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması, 2019-2023-cü illərdə Azərbaycanın BMT-dən sonra ən böyük beynəlxalq institut olan Qoşulmama Hərəkatına sədrliyi və ölkəmizin təşkilatın sədrliyi çərçivəsində Hərəkatın institusional inkişafında atdığı mühüm addımlar, Azərbaycanın hərəkatın parlament ölçülərinin inkişaf etdirilməsi təşəbbüsləri, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması və fəaliyyətinin təmin edilməsi barədə fikirlərini bölüşüb.

Milli Məclisin sədri İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa işlərinə başlaması, işğal zamanı dağıdılmış bütün infrastrukturun bərpa edilməsi, "Yaşıl enerji" zonası elan edilən Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhərlər" və "ağıllı kəndlər", beynəlxalq hava limanları tikilməsi, keçmiş köçkünlərin yenidən öz torpaqlarına qayıtması barədə də danışıb.

Sahibə Qafarova, həmçinin Azərbaycan ilə Belarus arasında münasibətlər barədə də məlumat verərək diqqətə çatdırıb ki, iki ölkənin qarşılıqlı əlaqələrinin inkişafı kifayət qədər uzun tarixi dövrü əhatə edir. Bu gün isə ölkələrimiz arasında münasibətlər öz inkişafının yeni mərhələsindədir və strateji tərəfdaşlıq xarakteri daşıyır.

Tədbirdə Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova çıxış edərək ölkələrimiz və xalqlarımız arasında münasibətlərə dair müsbət fikirlərini səsləndirib.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova Belarus Dövlət Universitetinin xatirə kitabını imzalayıb.

* * * *

Tədbirdə universitetin rektoru Andrey Korol Azərbaycan parlamentinin spikerinin tərcümeyi-halı haqqında məlumat verib və Sahibə Qafarovaya Belarus Dövlət Universitetinin Fəxri professoru adı verilməsi haqqında Elmi Şuranın qərarını elan edib.

Sonra rektor Belarus Dövlət Universitetinin Fəxri professoru diplomunu və mantiyasını spiker Sahibə Qafarovaya təqdim edib.

## Mərkəzi Bank Azərbaycanın birbaşa xarici investisiyalarının həcmini açıqlayıb




Birinci rübdə neft-qaz və qeyri-neft-qaz sektoruna ümumilikdə 1,5 milyard dollar həcmində birbaşa xarici investisiya yatırılıb.

Bu barədə Mərkəzi Bankın Statistika departamentinin direktoru Samir Nəsirov tədiyə balansının açıqlamasına dair keçirilən brifinqdə deyib. O bildirib ki, ötən ilin birinci rübündə bu göstərici 1 milyard 501 milyon manat təşkil edib: **“Azərbaycandan xaricə yatırılan birbaşa xarici investisiyalar isə 330 milyon dollar olub”.**

## CƏB-in profisiti ilə bağlı proqnoz açıqlanıb

“Bu ilin sonuna cari əməliyyatlar balansında (CƏB) 7 milyard dollar profisit gözləyirik”. Bu barədə Mərkəzi Bankın Statistika departamentinin direktoru Samir Nəsirov tədiyə balansının açıqlamasına dair keçirilən brifinqdə deyib.

O bildirib ki, birinci rübdə tədiyə balansının cari əməliyyatlar hesabının profisiti 1,7 milyard dollar olub: ***“Birinci rübdə tədiyə balansı xarici mühitdə baş verən müxtəlif istiqamətli meyillərdən təsirlənib”.***

## Ölkəyə 294 milyon dollar pul baratı daxil olub

Bu ilin birinci rübündə ölkəyə daxil olan pul baratlarının həcmi 294 milyon dollar təşkil edib.

Bu barədə Mərkəzi Bankın Statistika departamentinin direktoru Samir Nəsirov tədiyə balansının açıqlamasına dair keçirilən brifinqdə deyib.

O bildirib ki, ötən illə müqayisədə bu il ölkəyə pul baratlarının köçürülməsində azalma var: ***“Pul baratları ilə bağlı azalma Rusiya-Ukrayna müharibəsi ilə bağlıdır”.***

## Ümumdünya Aeronaviqasiya Sammitində ekoloji dayanıqlılıq diqqət mərkəzindədir

Bakıda “Azərbaycan Hava Yolları” QSC-nin “Azəraeronaviqasiya” Hava Hərəkəti İdarəsinin (AZANS) təşkilatçılığı ilə CANSO-nun Ümumdünya Aeronaviqasiya Sammiti işə başlayıb. Həmçinin bu həftənin sonunda təşkilatın 28-ci İllik Ümumi İclası (AGM) keçiriləcək.

İyunun 13-dək davam edəcək tədbirdə hava hərəkətinin təşkili sahəsində dünya liderləri və CANSO-nun (Beynəlxalq Mülki Aeronaviqasiya Xidmətləri Təşkilatı) üzvləri təşkilatın gələcəyi üçün əsas məsələlərin müzakirəsində və vacib qərarların qəbul edilməsində iştirak edəcəklər.

Builki tədbirin mövzusu ekoloji dayanıqlılıq, xüsusilə iqlim dəyişikliyi ilə mübarizədir. İştirakçılar karbon emissiyalarının azaldılması, qabaqcıl texnologiyaların tətbiqi, ekoloji cəhətdən daha təmiz uçuşlara nail olmaq üçün hava hərəkətinin idarə edilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparacaqlar.

## Sosial sığorta haqları üzrə daxilolmalar artıb




2024-cü ilin yanvar-may ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda proqnoza nisbətdə 186,9 mln. manat və ya 8,9% artım qeydə alınıb.

Bu barədə Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətindən məlumat verilib.

Qeyd edilib ki, büdcə təşkilatları üzrə daxilolma ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,3 mln. manat və ya 3,3%, qeyri-büdcə təşkilatları üzrə isə 198,2 mln. manat və ya 14,8% artımla olub.

## “COP29 istixana qazı emissiyalarının azaldılması ilə bağlı müzakirələri davam etdirmək üçün platforma olacaq”



“Yüksək səviyyəli aeronaviqasiya xidmətlərinin göstərilməsi və onun əsas hava marşrutlarının kəsişməsində yerləşməsi sayəsində 2021-ci ildən Azərbaycanın hava məkanı ilə tranzit daşınması 3,5 dəfə artaraq ayda təxminən 18 min tranzit uçuş təşkil edib”.

Bu sözləri rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Bakıda keçirilən Ümumdünya Aeronaviqasiya Sammitində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, AZANS tərəfindən idarə olunan hava məkanından dünyanın demək olar ki, bütün aparıcı aviaşirkətlərinin daxil olduğu 209 müxtəlif hava məkanı şirkəti istifadə edir ki, bu da Azərbaycanın aviasiya imkanlarına olan inam və etibarın göstəricisidir.

Nazir deyib: ***“Diqqət çəkən vacib məqam odur ki, Azərbaycanın öz torpağı və səması üzərində suverenliyinin yenidən bərpa etməsi AZANS-a ölkə ərazisində hava hərəkətinə hərtərəfli şəkildə nəzarət etmək imkanı verib. Bu mühüm inkişaf, işğal olunmuş ərazilərin azad edilməsi əməliyyat səmərəliliyini artırmaqla yanaşı, həm də Azərbaycan sərhədləri daxilində aviasiya üçün təhlükəsizlik standartlarını yüksəldir və bütün hava məkanı istifadəçiləri üçün rahat və təhlükəsiz istifadəni təmin edərək yeni marşrut imkanları açır”.***

Nazir həmçinin əlavə edib ki, uçuş marşrutlarının optimallaşdırılmasının yanacaq sərfiyyatını və karbon emissiyalarını 10 faiz, dayanıqlı aviasiya yanacağının isə adi aviasiya yanacağı ilə müqayisədə həyat dövrü istixana qazı emissiyalarını 80 faiz azalda biləcəyi təxmin edilir.

## “Azərbaycan ətraf mühitin mühafizəsi sahəsində mühüm addımlar atıb”



Bu sözləri CANSO-nun baş direktoru Saymon Hokkard Bakıda keçirilən Ümumdünya Aeronaviqasiya Sammitində çıxışı zamanı deyib.

“Azərbaycanda bir araya gəlməyimiz bizə iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün qlobal əməkdaşlığın və birgə fəaliyyətin vacibliyini xatırladır. Bu mühüm müzakirəni burada, Bakıda apararaq biz gələcək nəsillər üçün planetimizin ekosisteminin qorunması məqsədilə bütün sənaye və ölkələrin birgə səylərinin zəruriliyini dərk edirik”, - deyə CANSO-nun baş direktoru vurğulayıb.

## Azərbaycanda əmək müqaviləsinin bağlanması qaydası dəyişir



Azərbaycanda əmək müqaviləsinin bağlanması qaydası dəyişir, kağız daşıyıcılardan elektron sistemə keçid edilir.

Bu barədə məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilən Əmək Məcəlləsinə təklif edilən dəyişikliklə əksini tapıb. Qanun layihəsinə əsasən, əmək müqaviləsi elektron informasiya sistemində elektron sənəd formasında bağlanacaq, əmək müqaviləsi bildirişi ləğv olunacaq.

Əmək Məcəlləsinə dəyişiklik qüvvəyə mindiyi tarixdən elektron informasiya sistemində məlumatları mövcud olan əmək kitabçaları işəgötürənlər tərəfindən işçilərə təhvil veriləcək. Bu qanun qüvvəyə mindiyi gündək bağlanılmış əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi mərhələlərə uyğun olaraq həyata keçiriləcək.

Təklif edilən dəyişikliklər və təkmilləşdirilən altsistem işçi qüvvəsi balansı, İşçi qüvvəsinə təklif və tələbin ehtimal olunan həcmi və bölüşdürülməsi barədə dəqiq göstəricilər əsasında təhlillərin aparılmasına imkan yaradacaq.

Beləliklə, “Əmək və məşğulluq” altsistemi vasitəsilə bəzi proseslər rəqəmsallaşdırılacaq.

# Azərbaycanlılara qarşı erməni cinayətləri, terroru və xəyanətlərini unutmamalıyıq...

*(əvvəli ötən sayımızda)*

O vaxtlar (1905-ci il) Gəncə quberniyasının Cəbrayıl-Qaryagin (İ.İ. - indiki Füzuli) ərazisində xəyalpərəst ermənilərin yaramazlıqları nəticəsində daşnak nümayəndələri bəzi müsəlman kəndlərindən insanları "Ağ oğlan" monastrına yığır. Üç erməni kürsüdən onları təhqir edərək deyir: siz tövlə camaatınıza bu sözü başa salmaqla bildirin ki, siz müsəlmanlarda əsla elmi-mərifət nuru yoxdur. Buna görə erməni-müsəlmanlara deyirəm ki, biz qafqazlılar rus millətinin qapazları, boyunduruğu altında yaşayır, onlar isə kefləri istədikləri qədər əllərindən və dillərindən gələni bizlərə edirlər. Biz erməni milləti nə vaxtdan bəri milli hüququmuzu və idarə istiqlaliyyətimizi (İ.İ. - muxtariyyəti) tələb etmək təmənnasındayıq? Çıxış edən Rusiyanı düşmən kimi qələmə verir, Yaponiyanın bizdən aciz olduğu halda (İ.İ. - onları "milçək" adlandırır) Rusiyaya ağır zərbə vurduğunu bildirir. İkinci çıxışçı bildirir ki, biz ermənilər çoxdan bu xəyalda olmuşuq ki, Qafqazda bir qazan, yəni xörək bişirək. Qab asıb, xörək bişirmək üçün üç ayaq sacayağı lazımdır ki, qazan onun üstündə dursun. Bu sacayağın biri ermənilər, biri gürcülərdir. Lazımdır ki, bir qıçı da siz müsəlmanlar olasınız. **Üçüncü çıxışçı:** Eçmiədzində, Şuşada bizim nə qədər odlu silahlarımız ələ keçirilib, tutulub? Bizlər (İ.İ. - ermənilər) gərəkli şeyləri tədarük etmişik, bunlar nəinki özümüzə, sizlərə də qədərsizdir. Əgər sizlərdə qeyrət olsa, nə qədər silah və pul lazım olsa, bizdə hazırdır. Çıxış edən **"sizdən yardım olmasa, əks təqdirdə silahın siz müsəlmanlara tuşlanacağı, hər yerin xarabalığa, məzarlığa çevriləcəyi"** və s. sözlərlə hədələyir. Bu millətçilər çıxış edəndən sonra müsəlmanlar qəti etirzlarını bildirirlər.

Bildirirlər ki, biz müsəlmanları siz ermənilər yaxşı tanımayıbsız, belə hədələrdən qorxumuz yoxdur. Sizin azuqə və silahlarınıza ehtiyacımız yoxdur. Biz padşahımızın üzünə ağ ola bilmərik, bizi işlərinizə şərik etməyin! Ermənilərdən biri yenə ayağa durub, ***"dayanın, bilin və xəbərdar olun, biz üç nəfər erməninin sözləri sizə daşnak təşkilatının sifarişi ilə çatdırılır. Yığıncaqda danışılan sözləri müsəlmanlar qəbul etməsə, daşnak cəza qoşunlarının təhlükələrinə tuş gələcəksiniz".***

Bundan sonra Şuşada, Cəbrayılda müsəlmanlara divan tutuldu, evləri qarət olundu, evlərin daş və ağacları sökülüb, erməni kəndlərinə daşındı. Ermənilər Veysəlli kəndinə hücum edirlər, çox uzun illər bir yerdə çörək yeyən, çay içən erməni qonşu hamıdan qabaq evi yandırır, kəndə çox böyük ziyan dəyir. Qacar kəndini dağıtmaq, əhalini məhv etmək üçün əvvəlcədən mövqelərdə yerlərini tutub, səhərə üç saat qalmış, insanlar şirin yuxuda olarkən hücum etmişdilər. Həmin gecə arvad-uşağın nalələri, iniltiləri, qışqırıqları min nəfərlik kəndi başına götürmüşdü. Kəndin könüllü gəncləri özlərini itirməyib, güllə yağmuruna qarşı cavab verirlər. Altı saat qızğın müharibədə kəndin qadınları səngərlərdə vuruşmuşdular. Həmin gecə ermənilər kəndin kənarlarında olan 55 evi qarət edib yandırmışdılar. Bu müharibədə qonşu müsəlman kəndləri də köməyə gəlirlər, hər saat onların sayı artırdı. Yağlıkənd kənd sakini Həsənəli bəy Əskərxanov 20 nəfər süvari ilə erməniləri geri çəkilməyə məcbur etmişdilər. Ermənilər üç min silahlı qüvvə ilə Qacar kəndinə təkrar hücum planı hazırlamışdılar. Məqsədləri kişiləri qırıb, qadınları əsarətə alıb, ermənilərə paylamaq idi. Ancaq ermənilər məramlarına çata bilməyib, yenə böyük canlı qüvvə ilə tələfata uğrayıb, məğlub olurlar. Xırmancıq kəndində toplanmış müsəlman əsgərlərinin komandanı müharibəyə hazırlıqdan sonra əsgərlərə ***"indi görürsünüz ermənilər bizim nə qədər kəndlərimizi dağıdıb, nə qədər gəlin-qızlarımızı əsarətə alıb, olmazın təhqirlərə düçar ediblər. Ar olsun o əsgərə ki, düşmən xəncərini arxasından qəbul edə"***, - demişdi. Əsgərlər bu müharibədə erməniləri məğlub etdilər və onlar qaçmağa



*İslam İbrahimov, iqtisad elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü*



məcbur oldular. Ermənilər yenə öz nisbətlərindən əl çəkmirlər. Qışlaq kəndini, Məzrəə kəndini, Qaradağlı, Ağbulaq və digər kəndləri dağıdır, yandırır, əhalini didərgin salır, mal-qarasını əlindən alır, insanları məhv edir, görünməmiş faciələr törədirdilər.

1905-ci ildə Gəncə quberniyasının Şuşa uyezdində müsəlmanlar ermənilərin zahiri sakitliyinə öz ürək saflıqları, həm də avamlıqları nəticəsində inanmışdılar. Burada babalardan qalmış yanlış misalına "ermənidən pəhləvan çıxmaz" inamları vardı. Müsəlmanları aldadıb, yalançı dillərini işə salıb, Rusiyadan muxtariyyət idarəçiliyi təşkil etmək adı altında onların əleyhinə olmadıqları cəfəngiyyatına inandırıb, silah tədarükü ilə məşğul olmuşdular. Şuşa müsəlmanları ermənilərin muxtariyyət xəyallarına aldanmışdılar. Rusiya ermənilərin bu xəyallarına sükutla baxacaqmı və ermənilərə qarşı durmaqdan çəkinib biz müsəlmanları onlarla qarşı-qarşıya qoyacaqmı? Ermənilər yağlı dillərini işə salıb müsəlmanları sakit saldılar. Lakin avqustun 9-da erməni kəndi Vənkdə üç yüzdən çox erməni quldurу karvanlara hücum edir, müsəlmanları qətl və qarət edirlər. Xüsusi hazırlanmış iğtişaşçı bir erməni bildirir ki, indi xəbər gəlib ki, şəhərdən kənarda olan Zarıslıda dörd erməni öldürülüb. Həmin iğtişaşı törədən erməni yoldaşları ilə ata minib Zarıslıya xəbərə gedirlər. Xəbər gətirmək üçün kəndə gedən ermənilərdən biri atdan yıxılır, yaralanır. Onu yaralı kilsəyə gətirirlər və izdihamda ***"görürsünüz müsəlmanlar bizə nə edirlər"***, - deyir. Bununla iğtişaşlar, atışma və qətl hadisələri böyüyür.

Avqustun 17-də ermənilər Köçərli məhəlləsində 8 evi yandırıb, sakinlərini qəddarlıqla qətlə yetirirlər. Xəlfəli məhəlləsində yenə ermənilər 10 müsəlman evini qətl-qarət edirlər. Ermənilər son hərbi silahlardan istifadə etsələr də, ruhani və rəislərin məsləhətlərinə baxmayaraq, ermənilərdən tələfat çoxalırdı. Mərdlik və məharət göstərən min nəfərlik könüllü müsəlman gəncinin qorxusundan on qat artıq əsgəri qüvvəsi olan ermənilər səngərləri qoyub qoyun sürüsü kimi qaçırdılar. Müsəlman gənclərinin qəlbində ermənilərə qarşı nifrət çox idi. Ermənilər isə əvvəllər sülh üçün onlara çox yalvarsalar da, xainliklərindən əl çəkməmişdilər. Avqustun 20-21-də Şuşada müsəlmanlar sakitləşib, sülhü gözləsələr də, ermənilər yenə atəşlərini davam etdirirdilər. Barışıq olsa da, evlərinə getdikləri yerdə bir müsəlmanı sığınacaqdan güllə ilə vurub həlak etdilər. Realnı məktəbin təmirində işləyən 17 iranlı fəhləsinin başını kəsib müsəlmanları yenə pərişan etdilər. Şuşadakı bu müharibədə müsəlmanların 20 evi yandırılmışdı. Hökumət isə bitərəf qalırdı.

Şuşa uyezdinə general Qalaşçapov təyin edilir. Şuşaya yenidən təyin edilən generallar - Taqaşvili, Fleyşer, Qalaşçapov eyş-işrətlə məşğul olurdular. Qalaşçapov sadə görünsə də, qəddar və hiyləgər idi. İkinci Şuşa faciəsində bu general çox ədalətsiz olmuşdu. Dörd nəfər müsəlman meyvə apardıqları vaxt Əskəranda, bir nəfər arxda su bağladığı zaman ermənilər tərəfindən öldürülmüşdü. General deyir ki, gediş-gəliş sahəsindən kənarda olduğu üçün bu məsələyə baxmağa ixtiyarı yoxdur. Qalaşçapov müsəlmanlara iblis münasibəti göstərir, erməni və kazak dəstələrinə, piyada rus qoşununa müsəlmanları topa və atəşə tutmaq əmrini verir. Müsəlmanlar bunlara şiddətli cavab verirlər. Çoxlu tələfat olur. Ancaq ermənilər tələfatı gizlədirlər. Xankəndində olan rusların sözlərinə görə ölənlər çox olmuşdu.

İkinci dəfə Bakıda avqust ayında ermənilər erməni kilsəsində çalınan zəngdən sonra iğtişaşlara başlayır, dükançılara, araba sürən, su daşıyan kasıb insanlara, hətta rus və gürcülərə də fərq qoymadan atəş açırdılar. Pristav Jekintinin məlumatına görə, bu faciələrin əsas səbəbi ermənilərin milli ədavəti və bu işə çoxdan hazırlaşmaları idi.

Avqust ayında çoxlu müsəlman dükanları, kəndlər, evlər yandırılmış, insanlar qətlə yetirilmiş, erməni özbaşınalığı, talançılığı, insanlığa sığmayan cinayətləri artmışdı. Onların bir əsas fikri vardı - daşnakların tapşırığı və xəyalı ilə müsəlmanları darmadağın etmək, kəndlərdən qovmaq, yerində Ermənistan təşkil etmək. Ermənilərin vəhşi hərəkətlərinə müsəlmanların səbir və dözümləri tükənəndə ermənilərə tutarlı cavab verir, geri oturdurdular. Polisin, əmin-amanlığa cavabdeh olan generalların əksəriyyəti ermənilərə havadarlıq edir, canilərə şərik çıxır, sərvət toplayırdılar. Nəfsini güdən bu məmurlar iblis xislətli ermənilərin puluna tamahlanıb, müsəlmanların fəryadlarını eşitmirdilər. Əslində, buna erməni terrorçuları imkan vermirdilər. Belə bir şəraitdə müsəlman kəndləri boşaldılırdı.

Gəncə quberniyasının Cavanşir uyezdində Sırxavənd, Hacıqərvənd, Dəmirli, Çıraqlı, Ümidli, İmarət Qərvənd, Papravənd və digər kəndlər dağıdılmış, insanları amansızlıqla qətlə yetirilmişdi. Ümidli kəndində ermənilər hamilə qadını xəncərlə paralayıb, uşaqlarının başlarını kəsib çölə çıxarmış, qızlar isə vəhşilərin əlində qalmışdı. Yüz əlliyə qədər kişi və qadını doğrayıb bir-birinin üstünə yığıb yandırmışdılar. O vaxt bir nəfər qeyrətli və müsəlman qanı olan bəylərdən demədilər ki, cənab rəis Pivovarov Ümidli kəndinin camaatını elə bir yerə köçür ki, bu faciə baş verməsin. Bundan sonra erməni daşnaklar Tərtər ətrafındakı kəndlərdə iğtişaşlar törətdilər. O vaxtların faktları göstərir ki, hər yerdə qanlı faciələrin törədilməsinin əsas səbəbkarları ermənilər olmuşlar. Qazax uyezdində Sofulu, Çaxmaqlı, Qızılhacılı, Dəmirçilər və digər kəndlərdə ermənilər böyük hiylə və alçaqlıqla evləri dağıdır, talan edir, insanları öldürürdülər. Əlibəyli, Sofulu, Köhnəqışlaq, Cəfərli, Çaxmaqlı, Xeyrimli, Bagamis Ayrım və digər kəndlərdə ermənilər kəndləri dağıtmağa çalışırdılar. Şəmsəddin pristavı erməni Mesrop ermənilərlə müsəlman paltarı geyinib, Qazaxda iğtişaş yaradır, terror törədir, sonrada müsəlmanlarla yalançı sülh-mehribanlıq yaratmağa çalışırdılar.

**1905-1906-cı illərdə bu kimi dəhşətli qanlı hadisələrə, talanlara yüzlərlə, minlərlə faktlar gətirmək olar. 2024-cü ilə kimi ermənilərin ikiüzlü siyasəti, cinayətləri daha dəhşətli xarakter almış, onlar cəzasızlıqdan daha da azğınlaşmışlar.**

Əsirlər keçsə də, yaddan çıxarmaq olmaz ki, Prezident İlham Əliyevin 05.10.2020-ci ildə "TRT Haber" telekanalına müsahibəsində göstərdiyi kimi, "Azərbaycana, Türkiyəyə qarşı nifrət onların (İ.İ. - ermənilərin) qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir".

1918-1920-ci illərdə erməni silahlı dəstələri Bakıda 12 min, Şamaxıda 8 min, Qubada 16 min, Cənubi Azərbaycanda 130 min, Qərbi **Azərbaycanda 400 min nəfərdən çox azərbaycanlını qəddarlıqla qətlə yetirmişdir. Həmin ərazilərin kəndləri, əmlakları talan edilmiş, dağıdılmış, yandırılmışdır. Erməni terrorçuları 1970-1990-cı ilədək 22 ölkədə 235-dən çox terror aktı törətmiş, 24 türk diplomatını qətlə yetirmişlər.**

Ermənilər 1988-1992-ci illərdə azərbaycanlıların öz doğma dədə-baba torpaqlarından qovulmasına səbəb olmuş, Baganisdə, Ayrımda, Xocalıda, Meşəlidə, Qaradağlıda, Cəmillidə, Umudluda, Ağdabanda, Balıqayada soyqırımları törətmişdilər. Azğın ermənilər dəmir yolu, metro, avtobus, dəniz və hava limanlarında terror törətmişdilər. 1991-ci il 20 noyabrda Qarakənd faciəsini yaşatdılar, müsəlmanlara qarşı insanlıqdan uzaq nə varsa, ediblər. Beynəlxalq ictimaiyyətin gözü qarşısında Xocalı soyqırımı törədildi, ermənilər 26 fevral 1992-ci ildə bir gecədə sovet ordusunun 366-cı alayının iştirakı ilə 613 azərbaycanlını - ondan 106 qadın, 63 uşağı vəhşicəsinə qətlə yetirdilər. Akademik Z.Səmədzadə çox haqlı olaraq qeyd edir ki, "Kolokostdan, Xatından sonra dünyada törədilən ən dəhşətli faciə, soyqırımı məhz Xocalı qətliamıdır". (Z.Ə.Səmədzadə, Qarabağ iqtisadiyyatı 100 ildə, B.2022. V cild. s.172).

Akademik Z.Ə.Səmədzadə "Qarabağ iqtisadiyyatı 100 ildə" (B. 2022, V cild. 852 s.) kitabında qeyd edir ki, "Dünyada terrorizm, terrorçuluq "fəaliyyəti"ndən danışarkən ilk və mütləq şəkildə yada düşən erməni terror təşkilatları və erməni terrorçularıdır. Terrorizm artıq, necə deyərlər, ermənilərin və "erməniçiliyin" "fəlsəfəsi"nə, "yaşam tərzi"nə çevrilmişdir. 20-ci əsrdə və iyirmi ilini arxada qoyduğumuz 21-ci əsrdə terrorçuluq ermənilərin başlıca "fəaliyyət prinsipləri"ni, "erməniçiliy"in "ana xətti"ni təşkil etmişdir. (s.168)

Tarixi faktlar göstərir ki, 200 ildən artıq bir müddətdə ermənilər müxtəlif ölkələrdən Azərbaycan ərazilərinə məqsədli şəkildə yerləşdiriliblər. Ermənistanda yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalıb, dədə-baba yurdlarından qovulub, didərgin salınıb. Ermənilər bu millətə xas olan xüsusiyyətlərini göstərərək, yavaş-yavaş bizim torpaqlardan azərbaycanlıları qovmağa və torpaqlara sahib çıxmağa başlamışlar. Yaddan çıxarmaq olmaz ki, Ermənistana humanitar yardım adı altında Rusiyadan, İrandan, Hindistandan gizli, açıq və qaçaq yolla silah-sursat göndərilir, milyonlarla dollar yardımlar edilir.

Ermənilər azərbaycanlılara qarşı soyqırımı törətdilər, Ermənistanın havadarlarının sanksiyaları Azərbaycana tətbiq etdirilir.

Qarabağda 1988-1993-cü illər ərzində 30 il əvvəl mövcud olan şəhər və kəndlər dağıdılıb, binalar, abidələr sökülüb, talan edilib, heç nə qalmayıb. Oğurluq, talançılıq ermənilərin xislətidir, onlar vəhşiliklərini hər yerdə göstəriblər.

Tərtərdə qəbiristanlıqda dəfn mərasimi vaxtı hədəf alıb, dinc insanları bombalayıb öldürmələri, Gəncə, Mingəçevir, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrində dinc əhalinin raket atəşinə tutulmaları erməni faşizminin təzahürünü, ermənilərin yırtıcı xislətini göstərir. Bu insanlığa qarşı cinayətdir, terrorizmdir.

Beləliklə, hesab edirik ki, ermənilərin bütün sifətləri, xislətləri bizə aydın olduğu üçün onlara inanıb, arxa çevirmək olmaz. 200 illik dövrün erməni vəhşiliyi, qəddarlığı, terror fəaliyyəti, qanlı cinayətləri unudulmamalı, kiminlə qonşuluq şəraitində məcburi yaşamalı olmağımızı və erməni millətçilərinin havadarlarına arxalanmalarını, ən nəhayət murdar erməni qanlarında təcavüzkarlıq, qəddarlıq və xəyanətkarlıq nisbətinin olduğunu yaddan çıxarmamalıyıq.



# Спикер парламента Азербайджана встретилась с президентом Беларуси



Находящаяся с официальным визитом в Республике Беларусь председатель Милли Меджлиса Сахиба Гафарова встретилась с президентом Беларуси Александром Лукашенко. Об этом сообщили в отделе по связям с общественностью и прессы Милли Меджлиса.
Александр Лукашенко тепло поприветствовал председателя азербайджанского парламента и выразил уверенность в том, что этот визит будет способствовать развитию межпарламентских отношений.
На встрече было отмечено, что стратегические отношения между нашими странами, основанные на доверии, взаимном уважении, дружбе и сотрудничестве, прошли успешный путь развития.
Председатель Милли Меджлиса Сахиба Гафарова поблагодарила Александра Лукашенко за оказанный высокий уровень гостеприимства и добрые слова о стране, передала приветствие Ильхама Алиева президенту Беларуси.
На встрече также были высказаны мнения о развитии торгово-экономического сотрудничества между двумя странами и имеющемся потенциале в этой области. Было отмечено, что в ходе визита президента Беларуси в Азербайджан были проведены переговоры о возможности дальнейшего расширения сотрудничества, углубления связей по многим направлениям.

# Петришенко рассказал, какие совместные производства создадут




Беларусь и Азербайджан Заместитель премьер-министра Беларуси Игорь Петришенко рассказал, какие совместные производства создадут Беларусь и Азербайджан, во время заседания межправительственной белорусско-азербайджанской комиссии по торгово-экономическому сотрудничеству.
“Беларусь и Азербайджан могут по праву гордиться достигнутым уровнем сотрудничества, основой которого в значительной мере являются дружба лидеров наших стран и высокая интенсивность контактов на всех уровнях взаимодействия. Недавний государственный визит Президента Беларуси Александра Григорьевича Лукашенко подтвердил, что наше стратегическое партнерство будет и далее укрепляться, а взаимовыгодное сотрудничество продолжит активно развиваться на основе традиций дружбы и взаимопонимания”, – сказал Игорь Петришенко.
Он отметил, что главы государств поставили непростые, но реализуемые задачи. “Мы должны серьезно расширить производственную кооперацию – наряду с тракторами будем собирать в Азербайджане коммунальную и другую технику, а также белорусские лифты. Будем поставлять пожарную технику. Для обслуживания белорусской техники построим вместе с нашими азербайджанскими друзьями мультибрендовый сервисный центр. Планируем создать совместное производство лекарственных и ветеринарных препаратов, а также производство смешанных удобрений из азербайджанского азота и белорусского калия”, – отметил вице-премьер.
“Беларусь внесет свой конкретный вклад в возрождение Карабаха. Одним из главных наших проектов станет создание в Агдамском районе комплексного современного агрогородка, включающего производство и переработку сельскохозяйственной продукции, а также жилье и социальные объекты для работников и членов их семей. Концепцию этого комплексного проекта мы планируем презентовать главам государств”, – добавил Игорь Петришенко.

# МИД: “Беларусь и Азербайджан активно развивают промкооперацию и трансфер технологий”



Об этом заявил журналистам заместитель министра иностранных дел Беларуси Игорь Назарук по итогам заседания межправительственной белорусско-азербайджанской комиссии по торгово-экономическому сотрудничеству, передает корреспондент БЕЛТА.
“Азербайджан является для нас одним из ключевых торгово-экономических партнеров. Развивается сотрудничество и в других сферах. Сегодняшнее мероприятие – свидетельство тому, что воля белорусского и азербайджанского лидеров преобразовывается в соответствующие договоренности. Подписанная сегодня дорожная карта – это план наших действий, охватывающий практически все сферы торговли. Установили, кто с той или иной стороны будет отвечать за реализацию договоренностей, очертили сроки, когда будем эти решения воплощать в жизнь”, – сказал Игорь Назарук.
В рамках государственного визита Президента Беларуси в Баку в мае были озвучены планы увеличить товарооборот до $1 млрд. По его словам, акцент будет сделан на совместной работе на производственных площадках Гянджинского автомобильного завода. В планах сборка не только тракторной техники, но и иной сельскохозяйственной, а также пожарной, коммунальной.

# КРЕПКАЯ ДРУЖБА И НАДЕЖНОЕ ПАРТНЕРСТВО

## *Интервью Посла Беларуси Андрея Равкова газете «Республика»*

***- Уважаемый господин Посол, 11 июня – 31-я годовщина установления дипломатических отношений между Азербайджанской Республикой и Республикой Беларусь. Чем, по Вашему мнению, характеризуются наши отношения сегодня?***
- Да, 11 июня 1993 года были установлены дипотношения между нашими странами. В прошлом году мы отмечали их 30-летний юбилей. Конечно, и в составе СССР наши республики взаимодействовали, сотрудничали по многим направлениям. В настоящее время наши отношения характеризуются, прежде всего, статусом стратегического партнерства и стабильностью, предсказуемостью, равноправием и взаимовыгодностью. Главы наших государств задают тон, определяют основные векторы и сферы взаимодействия. Сегодня Беларусь и Азербайджан, наши народы связывают крепкие братские отношения. Наша дружба испытана десятилетиями, и в сложные периоды мы всегда были рядом, помогали друг другу, находили решения по всем вопросам.
На всех уровнях между руководителями налажены конструктивные отношения. Они установлены практически по всем направлениям двустороннего взаимодействия. Для нас важно, что все эти годы Беларусь и Азербайджан не поддавались сиюминутной конъюнктуре. И мы высоко это ценим. Сегодняшняя повестка двустороннего сотрудничества очень насыщенная и многогранная. По итогам недавнего государственного визита Президента Беларуси А.Г.Лукашенко в Азербайджан главами государств поставлены серьезные задачи перед госорганами и бизнес-сообществом. И мы серьезно настроены на их выполнение на благо наших народов и государств.
***- Чем же наполнено наше взаимодействие в нынешний период?***
- Оно носит комплексный характер, включая политическую, экономическую и гуманитарную составляющие. Недавно в Баку с успехом проходили Дни культуры Беларуси. В 2025 году ожидаем ответные Дни культуры Азербайджана в Минске. В ноябре этого года Беларусь примет участие в глобальном климатическом саммите в Баку.
Мне как послу приятно отметить, что торгово-экономическое сотрудничество в 2024 году развивается успешно, что подтверждается как статистикой, так и новыми товарными позициями в двусторонней торговле.
Здесь важна реальная заинтересованность партнеров с обеих сторон в реализации совместных проектов. И, конечно, важны регулярные контакты на всех уровнях. Я называл успешный майский визит на высшем уровне, а мы уже готовим намеченный на сентябрь визит Премьер-министра Азербайджана в Беларусь. И буквально в эти дни проходит визит в Минск азербайджанской парламентской делегации во главе с Председателем Милли Меджлиса.



Беларусь намерена внести свой конкретный вклад в возрождение Карабаха. Одним из главных наших проектов станет создание в Агдамском районе комплексного современного агрогородка, включающего производство и переработку сельскохозяйственной продукции, строительство жилья и социальных объектов для работников этого аграрного комплекса и членов их семей. Концепция этого комплексного проекта разрабатывается.
Следует подчеркнуть, что активно и эффективно работает Межправительственная комиссия по торгово-экономическому сотрудничеству Беларуси и Азербайджана, сопредседателями которой являются вице-премьеры Игорь Петришенко и Али Ахмедов.
***-Кстати, Андрей Алексеевич, мы знаем, что на прошлой неделе в Минске проводилось заседание этой комиссии. Каковы ее основные итоги?***
-Прежде всего, отмечу, что по результатам 14-го заседания Межправкомиссии была подписана актуализированная Дорожная карта по развитию сотрудничества между Беларусью и Азербайджаном до 2025 года. Это важный и конкретный документ, он охватывает не только экономический блок сотрудничества, но и гуманитарные направления.
В Азербайджане планируется собирать белорусскую пожарную и коммунальную технику. В рамках выполнения поручений глав государств, которые были даны во время государственного визита Президента Беларуси в Азербайджан, подписано трехстороннее соглашение о сборке нашей пожарной техники на базе шасси Минского автозавода на площадке Гянджинского автомобильного завода. Реализация этого документа позволит обеспечить потребности азербайджанской стороны в поставках техники для нужд Министерства по чрезвычайным ситуациям Азербайджана в объемах до 400 единиц в течение 5 лет.
Обсуждался также вопрос расширения линейки белорусской тракторной техники, производимой в Азербайджане.
Отмечу, что ранее в Азербайджан поставлено несколько электробусов. Заслуживает изучение вопрос о сборке нашего электротранспорта в Азербайджане. Кстати, находясь в Минске, азербайджанская делегация посетила предприятие "Белкоммунмаш".
Среди подписанных по итогам заседания МПК документов: Меморандум о сотрудничестве между Белорусской торгово-промышленной палатой и Агентством по развитию малого и среднего бизнеса Азербайджана; Меморандум о сотрудничестве между Республиканским институтом профессионального образования (Беларусь) и Государственным агентством по профессиональному образованию Министерства науки и образования Азербайджана.
А после заседания МПК в Минске проведен представительный бизнес-форум. Участие в нем приняли 40 азербайджанских компаний, заинтересованных как в продвижении собственной продукции на белорусский рынок, так и в закупке различных белорусских товаров. С белорусской стороны в форуме участвовали более 100 предприятий и организаций, охватывающих все отрасли и сферы деятельности - сельское хозяйство, продовольствие, машиностроение, металлургию, деревообработку, строительство и производство строительных материалов, химическую, фармацевтическую и легкую промышленность, а также сферы оптовой и розничной торговли.
Подчеркну, что в Минске на прошлой неделе состоялась также рабочая встреча премьер-министров Беларуси и Азербайджана Романа Головченко и Али Асадова, который был нашим гостем в связи с проведением в белорусской столице заседания Евразийского межправительственного совета.
Азербайджан является для нас надежным другом и одним из ключевых торгово-экономических партнеров. И этим многое определяется. Недавние переговоры в Баку президентов Беларуси и Азербайджана подтвердили, что наше стратегическое партнерство будет укрепляться и дальше.

**Провёл интервью:**
**Эмин Гасымов**
**"Республика"**

# Азербайджан и Беларусь подписали дорожную карту по развитию сотрудничества до 2025 года

Дорожная карта по развитию сотрудничества между Азербайджаном и Беларусью до 2025 года подписана сегодня в Минске.
Как сообщает Report со ссылкой на БЕЛТА, подписи под документом поставили заместитель премьер-министра Азербайджана Али Ахмедов и заместитель премьер-министра Беларуси Игорь Петришенко.
Также подписан протокол 14-го заседания межправительственной белорусско-азербайджанской комиссии по торгово-экономическому сотрудничеству.
Среди других подписанных по итогам заседания межправкомиссии документов - меморандум о сотрудничестве между Белорусской торгово-промышленной палатой и Агентством по развитию малого и среднего бизнеса Азербайджана.
Подписан меморандум о сотрудничестве между Республиканским институтом профессионального образования (Беларусь) и Государственным агентством по профессиональному образованию Министерства науки и образования Азербайджана.

# Azərbaycanın Orta Dəhlizdə mövqeyi çox əhəmiyyətlidir

*"Məncə, Azərbaycanın Orta Dəhlizdə mövqeyi son dərəcə əhəmiyyətlidir. Enerji axınları baxımından Mərkəzi Asiya qazının mövcud boru kəmərləri vasitəsilə Avropa bazarına gətirilməsi, Azərbaycandan Avropaya təmiz enerjinin daşınması üçün yaşıl elektrik dəhlizi layihəsi kimi ambisiyalar mühüm əhəmiyyət daşıyır".*



Bu sözləri Böyük Britaniyanın sabiq enerji və iqlim dəyişikliyi naziri, Böyük Britaniyanın Baş nazirinin Azərbaycan, Qazaxıstan və Türkmənistan üzrə sabiq ticarət elçisi Çarlz Hendri AZƏRTAC-a özəl açıqlamasında deyib.

Sabiq nazir Londonda Xəzər Siyasət Mərkəzi tərəfindən keçirilən ikinci Xəzər Bağlantı Konfransında iştirak edib. O bildirib ki, Xəzər dənizi üzərindən Azərbaycana, oradan isə Avropa dəmir yolu şəbəkəsinə ticarət məhsullarının çıxarılması imkanları da vacib amildir. Orta Dəhlizin strateji əhəmiyyəti gələcəkdə daha da böyük olacaq.

O deyib ki, malların Asiya və Avropa arasında daha sürətlə daşınmasını təmin etmək üçün iqtisadi zərurət var: *"Süveyş kanalındakı çətinliklər səbəbindən təhlükəsizlik zərurəti ön plana çıxır və buna görə alternativ yollar axtarırıq. Məncə, 2024-cü il dövlətlər, şirkətlər və insanlar üçün Qafqaz və Mərkəzi Asiyanı daha yaxşı tanıma imkanıdır. Bakının noyabr ayında COP 29-a ev sahibliyi edəcəyi faktı çox insanı ilk dəfə bu bölgəyə gətirəcək. Əminəm ki, onlar bu dinamik, həyəcanlı və canlı məkanın nə qədər möhtəşəm olduğunu anlayacaqlar".*

Sabiq nazir bildirib ki, Azərbaycanın karbon emissiyalarının azaldılması ilə bağlı hədəf və ambisiyaları çox diqqətəlayiqdir və Britaniya hökuməti Azərbaycanın COP29-a ev sahibliyini dəstəkləyir.

# "Kosmos iqlim dəyişiklikləri ilə mübarizədə əsas alətlərdəndir"

"Yer kürəsinin iqlimi daim dəyişir. Kosmos iqlim dəyişiklikləri ilə mübarizədə əsas alətlərdəndir".



Bu sözləri Azərbaycan Respublikasının Kosmik Agentliyinin İdarə Heyətinin sədri Saməddin Əsədov "Üfüqləri aşaraq: Dayanıqlı Kosmos, Dayanıqlı Yer" mövzusunda tədbirdə deyib.

*"Hazırda dünyada 160-dan çox kosmik cihaz iqlim dəyişikliyinə nəzarət edir. İqlim dəyişikliyi ilə bağlı məlumatların 60 faizdən çoxu məhz kosmosdan alınır. Bu sırada Azərbaycanın da yeri var. Ölkəmiz iqlim dəyişikliklərinin izlənilməsində kosmosdan, kosmik texnologiyalardan istifadə edir"*, - deyə S.Əsədov əlavə edib.

Saməddin Əsədov bildirib ki, "Azərkosmos" iqlim dəyişikliyinin kosmosdan ölçülməsi ilə bağlı ilk dəfə xüsusi elektron platforma hazırlayıb.

# Xəzər dənizi ilə bağlı təxirəsalınmaz tədbirlər görülməlidir

*"Son iyirmi il ərzində Xəzər dənizinin səviyyəsində müşahidə olunan azalma təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir və qlobal istiləşmənin mənfi nəticələrinin əyani sübutudur".*



Bu barədə ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev ADA Universitetində ilk dəfə keçirilən "Caspian Blue Horizons" tədbiri çərçivəsində "COP29 ərəfəsində iqlim dayanıqlılığı və Xəzərin dayanıqlılığı üçün elm və biznesin sinerjisi" mövzusunda keçirilən müzakirələrdə deyib.

"Caspian Blue Horizons Workshop " seminarının əsas məqsədi tətbiqi elmlər sahəsində ekspertlər və biznes nümayəndələri arasında əməkdaşlığa imkan yaratmaqdır. Onların qarşılıqlı fəaliyyəti Xəzər dənizində suyun səviyyəsinin azalması və ekoloji dəyişikliklərlə bağlı problemlərin həlli üçün innovativ həllərin və effektiv strategiyaların işlənib hazırlanmasına kömək edəcək", - o deyib.

Nazir qeyd edib ki, Xəzəryanı dövlətlərin nümayəndələri Tehranda imzalanmış Xəzər dənizinin dəniz mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyası çərçivəsində monitorinq, qiymətləndirmə və məlumat mübadiləsinə dair Protokolun müzakirəsi üçün vaxtaşırı bir araya gəlirlər.

# Azərbaycan ilə Albaniya arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

İqtisadiyyat naziri Mikayıl Cabbarov Albaniyanın Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku ilə görüşüb.



Nazirlikdən bildirilib ki, görüşdə ölkələrarası münasibətlərin inkişafında dövlət başçılarının sıx təmaslarının xüsusi rolu, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Bu ilin mart ayında Azərbaycan hökuməti ilə Albaniya Nazirlər Şurası arasında imzalanmış iqtisadi əməkdaşlıq haqqında saziş ticarət, investisiya, enerji, nəqliyyat, infrastruktur, ətraf mühit və digər istiqamətlər üzrə əlaqələrin inkişafına yönəlmiş növbəti addım kimi qiymətləndirilib. İkitərəfli münasibətlərin inkişafı üçün mövcud imkanların təhlili və qiymətləndirilməsinin, biznes dairələri arasında işbirliyinin vacibliyi qeyd edilib. Həmçinin turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə maraq ifadə edilib.

Tərəflər iqtisadi sahədə birgə fəaliyyət, səmərəli enerji tərəfdaşlığı və ikitərəfli investisiyaların təşviqi məsələləri barədə fikir mübadiləsi aparıblar.

# "Yaşıl" texnologiyalara keçid mühüm maliyyə yatırımları tələb edir"

Bu barədə Milli Məclisin deputatı, COP29 üzrə BMT-nin İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai Bakıda "Dayanıqlı inkişaf: problemlər və həllər" mövzusunda keçirilən tədbirdə deyib.

O, COP29-un mövzusunun iqlim maliyyələşdirməsi olduğunu xatırladıb.

"Yaşıl" texnologiyalara keçid baha başa gəlir və bu prosesləri "yaşıl" iqtisadiyyata reallaşdırmaq üçün trilyonlarla dollar lazımdır. Sual yaranır: bu maliyyə haradan gələcək və onların maliyyələşdirilməsi mexanizmləri necə olacaq? Biz artıq iqlim dəyişikliyinin nəticələrini görürük. Şəxsən mən, misal üçün, COP prosesinə qoşulmazdan əvvəl problemin ciddiliyini dərk etmirdim.

Hazırkı vəziyyətdə anlayırsan ki, dünya müxtəlif, eyni zamanda, kiçikdir. Digər tərəfdən, müxtəlif xalqların üzləşdiyi problemləri görürük. Misal üçün, kiçik ada dövlətləri ekzistensial təhdiddən danışırlar, bu isə o deməkdir ki, onlar yox olmaq həddindədir. Müzakirələr davam edir, lakin yenə də qərarlar verilir", - deyə o vurğulayıb.

Onun sözlərinə görə, problemin dərk olunması səviyyəsi artır və bu qətiyyətli tədbirlər olmadan növbəti səviyyəyə keçməyə imkan vermir.



# Hasil edilən qazın həcmi 3 faizdən çox artıb

Cari ilin 5 ayı ərzində respublikada 3,5 faiz artımla 20,9 milyard kubmetr təbii qaz hasil edilib.

Energetika Nazirliyindən bildirilib ki, qazın 5,4 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 11,6 milyard kubmetri "Şahdəniz", 0,65 milyard kubmetri "Abşeron", 3,2 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 0,7 milyard kubmetr artımla qaz hasil edilib.

Bu ilin beş ayı ərzində xaricə qaz satışı 10,6 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Avropaya 5,3 milyard kubmetr, Türkiyəyə 4,1 milyard kubmetr, Gürcüstana isə 1,2 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 2,3 milyard kubmetr qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara verildən iyunun 1-dək "Azəri-Çıraq-Günəşli"dən 221,8 milyard kubmetr, "Şahdəniz"dən isə 220,6 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 157 milyard kubmetri ixraca yönəldilib.

# May ayında gündəlik neft hasilatı 76 min tonu keçib

2024-cü ilin may ayında respublikada gündəlik neft (kondensatla birlikdə) hasilatı 76 775 ton olub.



Energetika Nazirliyindən Trend-ə bildirilib ki, bunun 62 118 tonunu xam neft, 14 657 tonunu kondensat təşkil edib.

Qeyd edək ki, "OPEC plus" ölkələri nazirlərinin 36-cı iclasında əldə edilmiş razılaşmaya görə, 2024-cü il üçün Azərbaycanın hasilat kvotası gündəlik 551 min barrel (74 259 ton) təşkil edir.

# Bakıda "Üfüqləri aşaraq: Dayanıqlı Kosmos, Dayanıqlı Yer" mövzusunda konfrans keçirilib

"Azərkosmos" və Kosmik Nəsil Məşvərət Şurasının (KNMŞ), Azərbaycan Gənclər Fondunun (AzGF) və Gənclərin Maarifləndirməsinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycanda artıq ikinci dəfə "Space Generation Azerbaijan (SG Azerbaijan)" tədbiri keçirilib.

Tədbir "Üfüqləri aşaraq: Dayanıqlı Kosmos, Dayanıqlı Yer" mövzusuna həsr olunub.

Tədbirin mövzusunun çox aktual olduğunu bildirən Azərbaycan Kosmik Agentliyinin (Azərkosmos) İdarə Heyətinin sədri Saməddin Əsədov bildirib ki, bu, "Azərkosmos"un KNMŞ ilə birgə Azərbaycanda keçirilən sayca ikinci tədbiridir.

*"Dünya İqtisadi Forumunun məlumatına görə, hazırda müxtəlif qlobal istiləşmə göstəricilərini ölçən 160-dan çox peyk var və əsas iqlim dəyişikliklərinin yarısından çoxu yalnız kosmosdan ölçülə bilər. "SG Azerbaijan 2024" həm yerli, həm də qlobal miqyasda kosmik təşəbbüslərin gündəlik həyatda necə töhfə verə biləcəyi haqqında məlumatlılığı inkişaf etdirir, eyni zamanda, ekoloji cəhətdən məsuliyyətli kosmik fəaliyyətlərə səsləyir. İqlim dəyişikliyi ilə bağlı məlumatların 60 faizdən çoxu məhz kosmosdan alınır. Azərbaycan da iqlim dəyişikliklərinin izlənilməsini kosmos və kosmik texnologiyalarla müşahidə edir. Kosmos iqlim dəyişiklikləri ilə mübarizədə əsas alətlərdəndir"*, - deyə S.Əsədov əlavə edib.

Yer kürəsinin iqliminin daim dəyişdiyini qeyd edən "Azərkosmos" sədri bildirib ki, iqlim dəyişikliyinin kosmosdan ölçülməsi üçün ilk dəfə xüsusi elektron platforma hazırlanıb: "Yeni platforma iki dildə olmaqla 5 bölmədən ibarətdir. Platformada göstərilən məlumatlar iqlim dəyişikliyi barədə məlumatlılıq səviyyəsinin artmasına töhfə verəcək. Burada 21 milyon kvadratmetr ərazinin son 30 ildə plan hesabatı kosmik texnologiyalar vasitəsilə əldə edilib. Qeyd etmək istəyirəm ki, elektron platforma üçün əsas informasiya mənbəyi "Azersky-2" peyki olub".

Azərbaycanda iqlim dəyişmələri fonunda yaranan əsas problem su ilə bağlı olduğunu vurğulayan S.Əsədov deyib ki, Dünya Resurs İnstitutunun araşdırmasına görə 2040-cı ildə ciddi quraqlıqla üzləşmək ehtimalı olan ölkələr arasında Azərbaycan 18-ci yerdə qərarlaşıb.

# Kommersiya qurumlarının 80 faizi elektron qaydada dövlət qeydiyyatına alınıb

Cari ilin yanvar-may aylarında 5230 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, bunun da 4695-i (89,8 faiz) yerli investisiyalı, 535-i (10,2 faiz) xarici investisiyalı qurumlardır.

Dövlət Vergi Xidmətindən verilən məlumata əsasən, dövlət qeydiyyatından keçmiş kommersiya qurumlarının 4172-si (79,8 faizi) elektron qaydada, 1058-i (20,2 faizi) kağız daşıyıcılarda edilmiş müraciətlər əsasında qeydə alınıb. Bu dövrdə qeydiyyatdan keçmiş yerli investisiyalı MMC-lərin e-qeydiyyatının xüsusi çəkisi 89,3 faiz təşkil edib. Kommersiya qurumlarının 4172-si elektron qaydada qeydiyyatdan keçib ki, onlardan 3407-si "ASAN İmza", 756-sı yeni üsul ilə (finkod + mobil nömrə) edilmiş müraciətlər əsasında qeydə alınıb.

Bu il iyun ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 37 min 240 vahid təşkil edərək əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,6 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 31,9 faiz təşkil edib.

2024-cü il iyun ayının 1-nə dövlət qeydiyyatında olan 116 min 774 kommersiya qurumunun vəziyyəti aktiv olub. 2023-cü ilin müvafiq dövrünə nisbətən aktiv kommersiya qurumlarının sayı 10,8 faiz, xüsusi çəkisi isə 1,5 faiz artıb.




# “COP 29-da ətraf mühit probleminin həlli baxımından Bakı qlobal mərkəzə çevrilmək şansına malikdir” - rektordan təklif

UNEC-in rektoru, professor Ədalət Muradov rəsmi facebok səhifəsində COP 29-da tullantıların "doğru həcmi"nin müəyyən edilməsi baxımından təkliflə çıxış edib.



O, bildirib: *“Ətraf mühitə atılan tullantıların miqdarı olduqca çoxdur. Bu fakt və bütövlükdə ətraf mühitə dəyən zərərin təhlükəli olduğu, demək olar ki, hamı tərəfindən qəbul edilir. Amma bu, həmin problemin həlli baxımından kifayət deyil”.*

“Burada əsas problem dünyada ətraf mühitə atılan tullantıların “doğru həcmi”nin müəyyən edilməməsidir. Başqa sözlə, söhbət planetin gələcəyinə təhlükə yaradan tullantıların maksimal həcmindən gedir. Yəni, ətraf mühitə atılan tullantıların hansı həcmindən sonra “geriyə saymaq” başlayır. İqtisadiyyatda hər zaman doğru olan yeganə düzgün cavabın olmadığı bəllidir və bu, hamı tərəfindən qəbul edilir. Amma buna baxmayaraq, “ətraf mühitə atılan tullantıların “doğru həcm”i nə qədər olmalıdır?” sualına yeganə düzgün cavabın tapılması və hamı tərəfindən qəbul edilməsi vacibdir. Noyabr ayında keçiriləcək COP 29-da tullantıların “doğru həcmi”nin müəyyən edilməsi baxımından Bakı həm də qlobal mərkəzə çevrilmək şansına malikdir. Bu məqsədlə COP-29-da Qlobal Komissiyanın yaradılmasını təklif edirik.

Həmin Qlobal Komissiyaya Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin Sədrlik etməsi isə qlobal ətraf mühit probleminin həll ediləcəyinə ən böyük zəmanətdir”, - rektor qeyd edib.

# “Peşəyönümlü təhsilin inkişafına yardım” ictimai birliyi “Universitetlərin rəqabət qabiliyyəti mövzusunda maarifləndirici dəyirmi masaların təşkili” adlı layihənin icrasına başlamışdır

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin verdiyi kiçik qrant hesabına “Peşəyönümlü təhsilin inkişafına yardım” ictimai birliyi “Universitetlərin rəqabət qabiliyyəti mövzusunda maarifləndirici dəyirmi masaların təşkili” adlı layihənin icrasına başlamışdır. Məlumdur ki, bizim universitetlər 20 ildir ki, universitetlərin qlobal reytinqlərində çox zəif nəticələr göstərirlər. Çünki universitetlərimiz qlobal təhsil bazarında rəqabətədavamlı deyil. Bunun bir çox səbəbləri var.



Təcrübə gösrtərir ki, bizim universitetlər nəinki rəqabətə davamlı deyil, hətta bəzi universitetlərdə “ali təhsil müəssisəsinin rəqabət qabiliyyəti nədir?” sualına birqiymətli cavab verə bilmirlər. Bu səbəbdən universitetlərdə belə bir mövzuda maarifləndirici dəyirmi masaların keçirilməsinə ehiyac var.

Dəyirmi masalarda universitetlərin rəqabət qabiliyyəti nədir, universitetlərin rəqabət qabiliyyətliyi meyarları, universitetlərin rəqabət qabiliyyətliyi və rəqabət üstünlükləri, niyə universitetlərimiz rəqabət qabiliyyətli deyil və s. kimi məsələlər müzakirə ediləcəkdir. Layihə rəhbəri “Peşəyönümlü təhsilin inkişafına yardım” ictimai birliyinin təsisçisi, təhsil eksperti, dosent İlham Əhmədovdur. Ölkənin bir neçə universitetində belə təbdbirlərin təşkili nəzərdə tutulur.






# "Apple" öz məhsullarında süni intellekt texnologiyası tətbiq edir



"Apple" ÜmumdünyaTərtibatçılar Konfransında bir neçə yeni süni intellekt (AI) funksiyasının tətbiq edildiyini və ChatGPT-ni yaradan "OpenAI" şirkəti ilə tərəfdaşlığını elan edib. Şirkət iPhone, iPad və Mac üçün "Apple Intelligence" fərdi intellekt sistemini təqdim edib.

Yenilənmələrə ChatGPT vasitəsilə yüzlərlə əlavə tapşırıq yerinə yetirə bilən "Siri" virtual köməkçisinin təkmilləşdirilməsi daxildir. "Apple" istifadəçiləri ayrıca dil seçimləri əsasında öz emojilərini və poçt qutusundakı məktubların xülasəsini yarada biləcəklər.

"Apple" şirkəti, "Microsoft" və "Google" kimi rəqiblərindən fərqlənəcəyini, böyük miqdarda məlumatları toplanmasını həyata keçirən süni intellekt texnologiyasının əsasında məxfilik prinsipinin dayanacağını bildirib.

Yenilənmələr bu ilin sonunda buraxılacaq "Apple iOS 18" əməliyyat sistemində pulsuz olaraq təqdim ediləcək, yeni funksiyaların tam dəsti isə yalnız ən son "iPhone", "iPad" və "Macbook" modellərində işləyəcək.

# OPEC 2024-2025-ci illər üçün neftə tələbat proqnozunu artırıb

OPEC 2024-cü il üçün qlobal neft tələbatının artımı ilə bağlı proqnozunu sutkada 2.25 milyon barel, 2025-ci ildə isə daha 1.85 milyon barel artıraraq 106.31 milyon barel səviyyəsində saxlayıb.

OPEC ilin ikinci yarısında İƏİT ölkələrində neft tələbinin əsasən ABŞ hesabına bir il əvvəlkindən 0.25 milyon barel çox olacağını gözləyir. Avropa və Asiyada İƏİT ölkələrinin tələbi cüzi şəkildə artıracağı gözlənilir.

OPEC yazır ki, İƏİT-ə daxil olmayan ölkələrdə sənaye, tikinti və kənd təsərrüfatı fəaliyyətlərindən, eləcə də İƏİT-ə daxil olmayan ölkələrdə, əsasən Çin və Yaxın Şərqdə neft-kimya potensialının artımından dəstək gözlənilir.

Aprel ayı üzrə ilkin məlumatlar göstərir ki, İƏİT ölkələrində ümumi kommersiya neft ehtiyatları aylıq müqayisədə 16/6 milyon barel artaraq 2.773 milyard barelə çatıb. Bu, 2023-cü ilin aprel ayı ilə müqayisədə 49 milyon barel, son beş ilin orta göstəricisindən 110 milyon barel, 2015-2019-cu illər üzrə orta göstəricidən 154 milyon barel azdır. O cümlədən, neft ehtiyatları 19.5 milyon barel artaraq 1.376 milyard barelə yüksəlib, neft məhsulları ehtiyatları isə 2.9 milyon barrel azalaraq 1.396 milyard barelə düşüb.




# Ukraynanın illik 10-30 milyard dollar investisiyaya ehtiyacı var



"Ukraynanın növbəti 10 il ərzində illik 10-30 milyard dollar investisiyaya ehtiyacı var".

Bunu Ukraynanın Baş naziri Denis Şmıqal Berlində Bərpa Konfransı çərçivəsində Çoxtərəfli Donor Koordinasiya Platformasının iclasında bildirib.

*"Platformanın fəaliyyəti ilə bağlı vəzifələrin və prioritetlərin aydın şəkildə təsvir edilməsi vacibdir. İlk növbədə, bu, Ukraynanın maliyyə sabitliyidir. Bizim üçün tərəfdaşların dəstəyinin proqnozlaşdırıla bilən, ritmik və sabit olması vacibdir. Bərpa, xarici bazarlara çıxış və təkmilləşdirilmiş logistika üçün tərəfdaşlarımızın investisiyalarına ehtiyacımız var və yaxın 10 ildə Ukraynaya illik 10-30 milyard dollar sərmayə lazımdır"*, - deyə Baş nazir qeyd edib.

# "Hyundai" Hindistanda 2.5 mlrd. dollarlıq IPO keçirməyi planlaşdırır

"Cənubi Koreyanın "Hyundai" şirkəti Hindistanda səhmlərin ilkin kütləvi təklifini keçirməyi planlaşdırır, IPO 2024-cü ilin sonunda baş tuta bilər", - "Bloomberg" yazır.

"Bloomberg" həmsöhbətlərinə görə "Hyundai" Hindistanda IPO zamanı təxminən 2.5 milyard dollar cəlb etməyi gözləyir. Agentlik qeyd edir ki, bu halda yerləşdirmə Hindistan fond bazarı tarixində ən böyük yerləşdirmələrdən biri olacaq. Əvvəlki rekord 2022-ci ildə IPO zamanı 206 milyard rupi (2.5 milyard dollar) toplayan "Life Insurance Corp of India" sığorta şirkətinə məxsusdur.

"Bloomberg" yazır ki, "Hyundai"in Hindistanda IPO-sunun həcmi və vaxtı ilə bağlı yekun qərarlar hələ verilməyib. Şirkət agentliyin şərh sorğusuna cavab verməyib.

Şirkətin hesabatına görə, "Hyundai Motor"un 2023-cü ildə xalis mənfəəti 12.27 trilyon Cənubi Koreya vonuna (təxminən 8.9 trilyon dollar) bərabər olub. Ötən ilin dördüncü rübündə mənfəət 2.2 trilyon von (1.65 milyard dollar) təşkil edib.

# G7 Rusiyaya qarşı yeni sanksiyalar qəbul edəcək

İtaliyada keçiriləcək sammitdə "Yeddilik Qrupu" (G7) Rusiyaya qarşı yeni sanksiyalar və ixrac nəzarətini elan edəcək.

Trend-in məlumatına görə, bu barədə Strateji Kommunikasiyalar üzrə Koordinator Con Kirbi jurnalistlər üçün onlayn brifinqdə deyib.

"Biz Rusiya hərbi maşını üçün xərcləri artırmağa davam edəcəyik və bu həftə təsirli yeni sanksiyalar və ixrac nəzarəti paketini elan edəcəyik", - deyə o bildirib. C.Kirbi gələcək məhdudiyyətlərlə bağlı əlavə təfərrüatlar verməkdən imtina etdi, lakin Qərbin Rusiyaya və onun müdafiə sənayesinə iqtisadi təzyiqi artırmaq niyyətində olduğunu vurğulayıb.

# Microsoft, Nvidia və Apple-ın səhmlərinin cəmi dəyəri S&P 500-ün 20%-ni ötüb

Dow Jones Market Data-nın məlumatına görə, Microsoft, Nvidia və Apple şirkətlərinin səhmlərinin cəmi bazar dəyəri 2000-ci ildən bəri ilk dəfə olaraq S&P 500 indeksinin dəyərinin 20%-dən çoxunu təşkil edib.

Bespoke Investment Group-a görə, bu, cəmi üç səhmin yüzlərlə digər şirkətin səhmlərindən daha dəyərli olması deməkdir. Belə bir vəziyyət cəmi 3 şirkətin İndeksə daha çox təsir edə bilməsinə səbəb olur. Bu vəziyyət də investorları narahat etməyə başlayıb.

Fairlead Strategies-in qurucusu Katie Stockttonun sözlərinə görə, Nvidia və digər meqa kapitallaşmaya malik şirkətlərin gücü, bazarın bir çox digər sahələrində zəifliyi gizlədib. Kiçik və orta səviyyəli şirkətlərin indeksləri, həmçinin Dow Jones Industrial Average pisləşmə əlamətləri göstərir.

Eyni zamanda, texnoloji cəhətdən ağır olan Nasdaq-100 indeksində konsentrasiya S&P 500-dən də yüksəkdir. Microsoft, Nvidia və Apple 2023-cü ilin noyabrından bəri ilk dəfə olaraq Nasdaq-100 indeksinin dəyərinin 41%-ni təşkil edir.

Bazar ertəsi ticarət zamanı Nvidia səhmləri 2%, Apple - 0,8%, Microsoft səhmləri isə 0,8% bahalaşıb. Nvidia-nın bazar dəyəri bu ilin əvvəlindən 2,4 dəfə (139%), Microsoft - 13,5%, Apple - cəmi 1,5% artıb.

# "General Motors" 6 mlrd. dollarlıq səhmlərini geri alır




Amerika avtomobil istehsalçısının press-relizində deyilir ki, "General Motors"un direktorlar şurası şirkətin səhmlərinin 6 milyard dollara qədər geri alınması proqramını təsdiqləyib.

GM keçən ilin noyabrında da 10 milyard dollarlıq alış elan edib. Bundan əlavə, əvvəllər elan edilmiş səhmlərin geri alınması proqramının bir hissəsi kimi 1.4 milyard dollar istifadə olunmamış qalıb.

Hesabatda qeyd olunur ki, 2024-cü ilin birinci rübündə şirkət 300 milyon dollarlıq qiymətli kağız alıb və qalan 1.1 milyard dolları ikinci rübün sonuna qədər istifadə etməyi planlaşdırır.

Bundan əlavə, GM rüblük dividendlərini üçdə bir artıraraq, hər səhmə görə 9 sentdən 12 sentə yüksəlib. Nəticədə şirkət indi 2024-cü ilin birinci yarısında səhmdarlara 1.7 milyard dollar qaytarmaq niyyətindədir. Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə ödənişlər 11.6 milyard dollar, 2022-ci ildə 2.8 milyard dollar olub.

Avtomobil istehsalçısının səhmləri çərşənbə axşamı ticarətdə 1.4% bahalaşıb. Son 12 ayda GM-in bazar dəyəri 28.5% (54.3 milyard dollara qədər), S&P 500 fond indeksi isə 22.2% artıb.

# Qızıl hasilatını artırmaqda çətinlik yaranıb



Bir çox perspektivli sahələr artıq kəşf olunduğu üçün bütün dünyada yeni qızıl yataqlarını tapmaq çətinləşir.

Ümumdünya Qızıl Şurasının (WGC) məlumatına görə, sarı metal yataqlarının tapılması çətinləşdiyindən qızıl hasilatı sənayesi istehsalı artırmaqda çətinlik çəkir. WGC-nin Baş bazar strateqi Con Rid bildirib, qızıl hasilatı 2016-2018-ci illərdə pik həddə çatıb və o vaxtdan bəri ciddi artım baş vermir.

Beynəlxalq Ticarət Assosiasiyasının məlumatlarına görə, qızıl hasilatı 2023-cü ildə 2022-ci illə müqayisədə cəmi 0,5% artıb. 2022-ci ildə artım illik müqayisədə 1,35%, əvvəlki il isə 2,7% idi, 2020-ci ildə isə qlobal qızıl hasilatı 1% azalaraq on ildə ilk dəfə azalmışdı.

*"Düşünürəm ki, heyrətamiz hekayə var: 2008-ci ildən sonrakı 10 illik müddətdə sürətli artımın ardınca qızıl hasilatı davamlı artırmaqda çətinlik çəkir"*,- Con Rid deyib.

Onun sözlərinə görə, bir çox perspektivli sahələr artıq kəşf olunduğu üçün bütün dünyada yeni qızıl yataqlarını tapmaq çətinləşir. Qızıl yataqlarını tapmaqla bərabər, ona icazə almaq, maliyyələşdirmək və onu idarə etmək də getdikcə çətinləşir.

WGC-nin məlumatına görə, irimiqyaslı qızıl hasilatı kapital tutumludur, əhəmiyyətli kəşfiyyat və işlənmə tələb edir, mədən hasilata hazır olana qədər orta hesabla 10-20 il çəkir. Hətta kəşfin hasilat ilə nəticələnəcəyi ehtimalı aşağı olur, qlobal qızıl kəşflərinin təxminən 10%-i hasilat işini təmin etmək üçün kifayət qədər metal ehtiva edir.

Bu günə qədər təxminən 187 min ton qızıl hasil edilib ki, bunun da əksəriyyəti Çin, Cənubi Afrika və Avstraliyadadır. Amerika Birləşmiş Ştatları Geoloji Tədqiqat Xidmətinin məlumatına görə, çıxarıla bilən qızıl ehtiyatları təxminən 57 min ton qiymətləndirilir.

Qızıl qiymətləri son aylarda Çinin başçılıq etdiyi güclü tələbin artması ilə rekord həddə çatdıqdan sonra "nəfəs alır". Qızıl hazırda bir unsiya üçün 2295 dollara satılır.

# "Bakcell"in dəstəyi ilə "Google AI Hackathon" baş tutub

Bakcell-in rəsmi sponsorluğu və Tech Academy-nin təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə "Google AI Hackathon" baş tutub.

IDDA-nın ev sahibliyi etdiyi innovasiya və yüksək texnologiyaları təmsil edən tədbir, yaradıcı beyinləri, süni intellekt həvəskarlarını, developer və proqramçıları bir araya toplayıb. Google-ın möhtəşəm Sİ platforması olan "Gemini"dən istifadə edərək yenilikçi həllər tapmağa çalışan 21 komanda 2 gün ərzində qalibiyyət üçün yarışıb.

"Bu möhtəşəm tədbirin Bakıda keçirilməsi Azərbaycanın texnologiya sahəsindəki liderliyini və innovasiyaya olan dəstəyimizi təmsil edir. Komandaların nümayiş etdirdikləri yaradıcılıq və istedad həqiqətən ilhamverici idi. Bugünkü tədbiri dəstəklədiyimiz kimi, Azərbaycanın parlaq gənclərinin də hər zaman yanındayıq", - deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib.

Bakcell əməkdaşının da təmsil etdiyi münsiflər heyətinin qərarına əsasən 2-ci günün sonunda hakatonun qaliblərini təyin olunub. "CODAGE" adlı komanda 1-ciliyə layiq görülərək 3000 AZN, 2-ci yeri tutan "JOSUA VERSE" komandası 2000 AZN, "LİBRA VƏ SPARK" komandası isə 3-cülüklə 1000 AZN dəyərində pul mükafatı qazanıblar.






AQRARKREDİT
SƏHMDAR KREDİT TƏŞKİLATI

Azərbaycan xalqını
Qurban Bayramı
münasibətilə təbrik edir.
Könüllərin bir olduğu
bu gündə Rəbbimiz bizləri
sevdiklərimizdən və doğru
yoldan ayırmasın.


# Müasir dövrün ən böyük problemlərindən biri - fiziki passivlik

**Fiziki aktivlik ürək-damar xəstəlikləri, xərçəng və şəkərli diabet kimi qeyri-infeksion xəstəliklərin profilaktikası və sağlamlıq üçün vacib əhəmiyyətə malikdir. Bəs fiziki passivlik nədir və insan sağlamlığına hansı təsirləri vardır? Bununla bağlı suallarımızı Mərkəzi Gömrük Hospitalının fizioterapevti Səidə Kərimovaya ünvanladıq.**



***- Səidə həkim, fiziki aktivlik insan sağlamlığı üçün vacibdir. Qarşıdan bizi isti yay günləri gözləyir. Bu mövsüm fiziki məşğələlərlə nə vaxt məşğul olmaq lazımdır ki, orqanizmin fəaliyyətinə müsbət təsir göstərsin?***

- Ümumiyyətlə, bütün insanlara məsləhət görürəm ki, hər gün açıq havada gəzsinlər, məsələn, piyada yürüş etsinlər, müxtəlif idman hərəkətləri ilə məşğul olsunlar və ya açıq meydançalarda oyunlar oynasınlar. Dəniz sahilində vaxt keçirmək, üzmək və qumda dincəlmək, müxtəlif oyunlar oynamaq yaxşı olar, amma bu zaman günvurmadan qorunmaq zəruridir. Yay aylarında çoxlu maye, əsasən su qəbul etmək lazımdır, bu, gücünüzün bərpası üçün çox vacibdir.

***- Fiziki passivliyin insan orqanizmi üçün hansı zərərləri var?***

- Fiziki passivlik müasir dövrdə ən boyük problemlər sırasındadır. Araşdırmalara görə, fiziki passivlik və hipodinamiya ümumi ölüm riski faktorları arasında 4-cü yerdədir. ÜST-ünin məlumatlarına əsasən dünyada 15 yaşından yuxarı əhalinin 31,1%-i fiziki passivdir. Fiziki passivlik ürək-damar, diabet və xərçəng kimi xəstəliklərın gedişatını ağırlaşdırır.

13-15 yaşlı yeniyetmələr arasında da vəziyyət ürəkaçan deyil. Onların 80%-i gündəlik minimal 60 dəqiqəlik aktivlik rejiminə riayət etmirlər.

Fiziki passivlik barədə danışanda oturaq rejimi də qeyd etmək lazımdır. XX əsrdə oturaq rejimin ziyanını hətta siqaret çəkmənin ziyanı ilə bərabərləşdirirdilər. “Oturmaq yeni variant siqaret çəkməkdir” (sitting is a new smoking) ifadəsi bir müddət trendə çevrilmişdi.

***- Səidə xanım, fiziki aktivlik dedikdə, hansı fiziki məşğələlər nəzərdə tutulur? Orta intensiv fiziki aktivlik hansıdır?***

- Fiziki aktivlik gündə ən azı 30 dəqiqə, həftədə 5 gün orta intensivlikdə idmanın olmasıdır. Uşaqlar və yeniyetmələr üçün bu rəqəm fərqlidir - gündə 60 dəqiqə. Orta intensiv fiziki aktivlik isə standart rahat vəziyyətdən 3 dəfə artıq enerji tələb edən aktivlikdir. Məsələn, orta templə yürüş, velosiped sürmə, tennis, üzgüçülük və s. Məncə, yürüş aktiv qalmaq üçün ən sadə və əlçatan bir variantdır.

***- Fiziki aktivliyin insan sağlamlığı üçün nə kimi müsbət təsirləri var? Fiziki aktiv olmaqla hansı xəstəliklərin qarşısını almaq mümkündür?***

- Fiziki aktivlik ürək-damar, diabet və digər xəstəliklərin profilaktikasında və kompleks müalicəsində vacib rol oynayır. Fiziki aktivlik çəki kontrolu, sümüklərin və əzələlərin möhkəm olması üçün çox vacibdir. Tədqiqatlara əsasən bir sıra xəstəliklərin müalicəsində fiziki aktivlik dərmanla eyni, bəzi vaxtlar isə daha güclü effekt göstərir.

Aktivliyin orqanizmə müsbət təsiri elmlə sübüt olunmuşdur. Bu təsirlər arasında aşağıdakıları göstərmək olar:

*- Artıq çəkini kontrol altına salır;*

*- Qlükozanı (şəkəri) və insulin balansını tənzimləyir;*

*- Ürəyin koronar damarlarında qan axarını artırır;*

*- Trombların yaranması riskini azaldır;*

*- Qan təzyiqini tənzimləyir;*

*- Qanda lipid profili yaxşılaşdırır - “yaxşı” yağların lipoproteidlərin səviyyəsini artırır, “pis” yağların səviyyəsini azaldır.*

Bunlarla yanaşı, fiziki aktivlik insanda depressiya, stress və gərginliyi azaldır və ümumi əhvalı yaxşılaşdırır.

***- İnsanların fiziki passivliyinin əsas səbəbləri hansılardır?***

- XXI əsrdə insanların çoxu vaxtını kompüter qabağında və nəqliyyatda oturaq vəziyyətdə keçirir. Bizim bədənimiz hərəkət üçün hesablanıb. Müasir texnologiyalar və ofis işi şəraiti isə bizi hipodinamik həyat tərzinə meyilləndirir. Bu barədə çox maraqlı rəqəmlər var - böyüklər orta hesabla sutka vaxtının 90%-ni qapalı məkanlarda keçirir. Gün ərzində təxminən 9 saat oturaq vəziyyətdə oluruq. Oturaq rejimin bizim onurğamızın sağlamlığına, əzələ, skelet strukturlarına və digər sistemlərə mənfi təsiri haqqında sübut olunmuş araşdırmalar mövcuddur. Təbiidir ki, belə həyat tərzimiz bir sıra xəstəliklərin yaranmasına şərait yaradır.

***- Orta və ya ağır fiziki aktivlik fəaliyyəti zamanı dayaq-hərəkət aparatının travmaya məruz qalmaması üçün nələri tövsiyə edərdiniz?***

- İlk və ən vacib qayda - hansısa idman və hərəkət zamanı ağrı hiss edirsinizsə, onu dərhal dayandırın. Ağrı hərəkətinizin düzgün olmaması, ya da bədəninizin bu hərəkətə hazır olmaması barədə xəbərdarlıq edir. Hər bir idmandan əvvəl istilənmə mərhələsini unutmayın, hərəkətin düzgün texnikasını öyrənin, gücünüzü düzgün qiymətləndirin. Fiziki aktivliyə uyğun qidalanın, bol su için və dincəlin. Bunlar idmandan sonra əzələlərin bərpasına kömək edəcək.

***- Ev şəraitində fiziki aktiv olmaq üçün hansı məşğələlər edilə bilər?***

- Gündəlik idman proqramınıza gərmələri, balans üçün hərəkətləri, ümumi bədənin sağlamlığına müsbət təsir edən, tez-tez müşahidə olunan bel və boyun ağrılarında istifadə olunan idman hərəkətlərini əlavə etmək məsləhətdir. Bu idmanları siz hospitalımızın saytında “Düz qamət - sağlam həyat” rubrikasından öyrənə bilərsiniz.

**- Səidə həkim, maraqlı müsahibəyə görə təşəkkür edirik.**

**Müsahibəni apardı:**
**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə tibb elmləri doktoru, professor, Böyük Britaniya Kral Cəmiyyətinin üzvü
**SƏBZƏLİ CAVADOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə və professor Fuad Hacızadə tibb elmləri doktoru, professor, Böyük Britaniya Kral Cəmiyyətinin üzvü
**SƏBZƏLİ CAVADOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Professor Elşən Hacızadə Qurban Sadıqova əzizi
**SÜLEYMAN ABBASOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500